# D İ L Ç İ L İ K

UOT 81 41; 801. 7
https://doi.org/10.59849/2311-8482.2024.3.46

FİRUDİN RZAYEV*

## NAXÇIVAN TOPONİMLƏRİNDƏ SKİF -SARMAT TÜRKLƏRİ İLƏ BAĞLI API, PAPAYI, QOYTOSİR VƏ ZANQİ MİFLƏRİ

*Məqalədə əski türk mifik təfəkküründə xüsusi yeri olan Skif-Sarmatlardakı qədim türk miflərinin Naxçıvan ərazisi toponimlərindəki izlərindən bəhs olunur. Tədqiqatlarda adı keçməyən Api, Papayi, Qoytosir, Zəngi miflərinin tarixi m.ö. I minilliyin əvvəllərinə söykənməklə, digər türklərdə də xatırlanmaqla, ərazi toponimik adlarında günümüzə qədər qalmışdır. Bu qədim mifin Naxçıvan toponimlərində izi indiyədək Azərbaycan və türk alimləri tərəfindən tədqiq edilməmiş və onlarla bağlı Tanrı adlarının izahı verilməmişdir. Məqalədə qədim Naxçıvan ərazisi toponimik sistemindəki oykonimik adlarda Api, Papayı, Qoytosir, Zanqi kimi mifik adları dil və tarixi faktlar əsasında təsdiq edilir. Bu mifləri daşıyan tayfalar demək olar ki, Naxçıvanın bütün toponimik sistemi oykonim, oronim, hidronimlərində də ilkin variantında təkrarlanır.*

*Api, Papayı, Qoytosir, Zanqi türk miflərinin Skif prototürkləri ilə bağlı adlarda qalması bu mifik inancın qədimliyini sübut edir. İstər Naxçıvan, istərsə də digər türklərdə bu adın yeri məqalədə elmi faktlarla əsaslandırılır.*

**Açar sözlər:** *Skif mifi, Api, Papayı, Qoytosir, Zanqi, Naxçıvan, oykonim, oronim*

### Giriş

Qədim Naxçıvan ərazisində öz adı və mifoloji inancları ilə izlərini əbədiləşdirmiş tayfalardan biri də **skif** və **sarmat** tayfaları olmuşdur. Xüsusi olaraq qeyd edək ki, bu tayfaların da Naxçıvan-Naxər ölkəsi ərazilərində istər məskunluğu, istərsə də onların dili, tarixi və mifoloji inancları ilə bağlı tədqiqat aparılmamış, onların hansı dövrdə bu ərazilərdə məskunluğu göstərilməmişdir. Bəzi toponimik adlara hansısa bir fikrin təsdiqi ilə bağlı istinad olunsa da onların hansı tayfa adından yaranışı, dili, tarixi və mifoloji inanc məsələsi araşdırılmamışdır.

Biz mənbələrə diqqət etdikdə Azərbaycan, o cümlədən də Naxçıvan əhalisinin təşəkkülü tarixində adları çəkilən prototürklərlə yanaşı, Skif türklərinin də xalqımızın etnogenezi, həm də mifoloji inanc tariximizdə xüsusi rolu olması faktları ilə qarşılaşırıq. Xüsusi olaraq qeyd edək ki, istər tarixi mənbələr, istərsə də toponimik adlar türklərlə bağlı tarixi faktlarla yanaşı, həm də onların mifik inanclarını özündə qoruyub saxlayan əsl mənbə yerindədirlər. Skif tayfalarının Naxçıvanda məskunluğu və onlarla bağlı mifoloji inanclar toponimik sistemdə istər arxiv sənədləri, istərsə də günümüzdə aktiv fonda daxil olan toponimlərdə bu gün də qalmaqdadır. Bu tayfalar bəzi yazılarda səthi olaraq m.ö. V əsrə aid edilmiş olsalar da, biz xeyli sayda mənbələrdə onların m.ö. II minilliyin sonu, I minilliyin əvvəllərində tariximizdə yer aldığını görürük ki, onları tayfa şəklinə düşməsi ən azı 2 minillik bir dövrü əhatə etmişdir. Skif tayfalarının istər tarixi dövrləri, istərsə də özlərinə məxsus mifoloji inanclarının formalaşmasına aydınlıq gətirmək üçün, biz tarixi mənbələrə və tədqiqatlara diqqət etməyi elmi baxımdan gərəkli hesab edirik.

### Tarixi mənbələrdə Skif-Sarmat türkləri

Biz Assur mənbələrində m.ö. 674-cü ildə Manna dövlətində, m.ö. 673-cü ildə isə, Midiya dövlətində başda İşpakay olmaqla İşquzay (yaxud Aşquzay) adlı etnos, tayfa adına rast gəlirik. İ.M.Dyakonov yazır ki, İşquzay Ön Asiyaya gəlmiş bir etnosun konkret adı, özünü adlandırması idi. Bu etnosun Mannaya və Midiyaya gəldiyi vaxt dəqiq məlum deyil [4, s. 142]. Lakin İşquzay tayfasının gəlmə olması onunla izah olunur ki, qabaqkı illərdə mənbələrdə bu tayfaların adı çəkilmir.

Biz Herodotun yazılarında və Şərq tarixinə dair mənbələrdə skiflərin Midiya hökmdarı Kiaksarın (m.ö. 712-625) hakimiyyəti dövründə Midiya ərazisinə iki köçünü qeyd edilməsi ilə rastlaşırıq. Herodot açıq yazır ki, onları "skif" adıyla ellin-yəni yunanlar adlandırırlar, əslində isə skiflər özlərinə "skolot" deyirlər. O, skiflərin **aqatsir, arimaspi, issedon, skolot, iskulut, paralat yirik** tayfalarının adını qeyd edir. Burada biz skif-sarmat birliyinə dair məlumatlara rast gəlirik ki, müəllif

skif tayfalarının sarmatlar tərəfindən Azərbaycan ərazilərində sıxışdırılmaqla, Araz axarlarından adlayıb Şərqə yayıldıqlarını göstərir [6, I, 73, 103; IV, 6, 11, 13, 22; 16, s. 355-358]. Əgər bu məlumatlara diqqət etsək, işquzaylar Herodotun məlumatından əvvəl, m.ö. 674-cü ildə qeyd edilir ki, bu onun qeyd etdiyi Kiaksar dövründə şimaldan gələn tayfalar deyil, yerli türk tayfadır ki, bu tayfalar m.ö. VII yüzilliyin əvvəllərindən tarixdə yer almışdır. Həmin dövrdə isə Naxçıvan Midiya dövlətinin tərkibində qüdrətli əyaləti idi. Təbii ki, Skif-işquzlar bu əyalətdə də məskun olmuş tayfalar idilər. Bunu Naxçıvan ərazisi toponimlərində öz adlarını əbədiləşdirmiş paralat, yirik, arimaspi boylarının adları da sübut edir ki, bu tayfa adları istər müasir aktiv fondda, istərsə də arxiv sənədlərində bu gün də qalmaqdadır [15, s. 238-270].

Biz Q.Qeybullayevin yazılarında onun antik müəlliflər Herodot, Kvint Horatsiy Flak, İsidor, Hippokrat və başqalarının yazlarına istinadən bu tayfaları geniş araşdırması ilə qarşılaşırıq. Burada müəllif Manna, Midiya dövlətləri ərazilərində işquzayların adının keçdiyinə, eləcə də bu ərazilərdə məskun olmalarına yetərli elmi faktlar ortaya qoyur. O, mənbələrə və antik müəlliflərə istinadən skif tayfa adlarının qədim yunanlara və latınlara keçməsi, o cümlədən Herodotun bu etnonimi qədim yunanlarda **skit** və qədim latınlarda **skut** kimi tələffüz edilməsi məsələlərinə aydınlıq gətirmişdir. Q.Qeybullayev bu əsərində, Qara dənizin Şimal çöllərindəki tayfaların da bu adla adlandırması məsələsinə toxunaraq, Manna və Midiyadakı işquzayların və Qara dənizin şimal çöllərindəki tayfaların həyat tərzlərinin oxşarlıqlarına faktlar göstərməklə yanaşı, onların məişətlərindən də bəhs edir. Burada Manna və Midiya ərazisindəki konkret işquzay etnoniminin antik mənbələrdə ümumi skif (skut) etnoniminə çevrildiyi, Herodotun Midiya hökmdarı Kiaksarın hakimiyyəti dövründə şimaldan köçüb gələn tayfaları skif adlandırması məsələləri geniş təhlil edilir. Bununla bərabər burada tədqiqatçıların skiflər haqqında ortaq fikrə gələ bilmədikləri məsələlərə də toxunan müəllif, Assur dilində İşquzay kimi keçən bu adı daşıyanların özlərini **skif** kimi adlandırdığını da göstərir. Avestada bu etnonimin "İskata" kimi yazılması məsələsini də izah edən Q.Qeybullayev, bu abidədə İskatanın Zərdüşt peyğəmbərin fəaliyyət göstərdiyi ölkələrdən biri olduğunun qeyd edildiyini də izah edir. O, nəticə olaraq yunanların və latınların **skit** və **skut** kimi yazdıqları etnonimin əslində elə "işqutay"- skiflər olduğunu göstərir [7, s.135-139].

**Skif- sarmatlarda qədim türk mifoloji inancları**

Biz inanclarla bağlı tədqiqatlara diqqət etdikdə, Q.Qeybullayevin yazılarında mifologiya və toponimikaya dair fikirlərlə yanaşı, skiflərin qədim türklər olduğunu, bununla yanaşı, Herodota istinadən onlarda **Api** yer ilahəsinin, **Papay** Baş tanrının, **Qoytosir** Allahı adlarının da yer aldığını göstərir. Lakin bu tədqiqatlarda Sarmat türkləri ilə bağlı **Zanqi** mifi haqqında hər hansı bir məlumata rast gəlmirik. Burada Azərbaycan xalqının etnogenezi məsələsinə toxunan müəllif, Ön Asiya-Azərbaycanın Midiya dövləti ərazisində Skif türklərini Herodota istinadən m.ö. VII əsrə Qara dənizdən şərqə doğru göstərir. O, m.ö. II minilliyin ortalarından Azərbaycan, Qazaxstan, Orta Asiya və Altay ərazilərinin skif-sarmatların Ana yurdu olduğuna, bu dövrdə tarix səhnəsində olduqlarına dair yetərli faktlar da göstərilir. Müəllif onları yunanların *aşquzay, işquzay* adlandırma səbəbini dil imkanları ilə bağlı olduğunu yazır [7, s. 261; 8, s. 98, 141, 278, 473].

V.İ.Abayev də özünün skiflər haqqındakı tədqiqatlarında **skif-sarmat** birliyi adının yaranması məsələsinə toxunmaqla, bu adın yunanlardan gəlməklə, **skitya** yazılışında "yaydan ox atanlar" mənasında olduğunu qeyd edir [1, s. 25]. Lakin, biz onun bu istiqamətdəki araşdırmalarında bu tayfalarla bağlı hər hansı bir mifoloji inanc məsələlərinə toxunması ilə qarşılaşmırıq.

M.İ.Artamanov da öz tədqiqatlarında skif məsələsinə toxunmaqla bu tarixi prosesin m.ö. IX əsrdə baş verdiyini yazır, lakin mifoloji inanc məsələsinə toxunmur. O sadəcə skif arxeoloji mədəniyyətini araşdırarkən bu nümunələrdə Maral mifolojisinin geniş əks olunduğunu göstərir, lakin onun nə məna daşıdığı mifoloji yöndən izah olunmur [2, s. 23-25]. A.M.Xazanovun yazılarında da biz skif-sarmat mədəniyyətinin Ön Asiya-Azərbaycan türklərinin təsirindən yarandığına dair məlumatlarla qarşılaşsaq da, bu mədəniyyətdə mifoloji inanc məsələləri yer almır [9, s. 219].

Q.Qeybullayev isə mifoloji baxışın skif sarmat türklərində eyni olduğunu göstərib, Pomponiy Mela istinadən skif mədəniyyətinin müxtəlifliyini, Araz hövzəsinin onların ilk məskəni olduğunu qeyd edir, lakin M.İ.Artamanovun Maral mifolojisi haqqındakı fikirlərini qəbul etmir [ 8, s. 284, 292].

Bidiyimiz kimi F.Ağasıoğlu da görkəmli tədqiqatçılardan biri olmaqla, qədim yazı nümunələrini

geniş şərh və tərcümə edən bir alim kimi özünü tanıtmışdır və o, öz araşdırmalarında Arazdan aşağı, Urmiya gölündən qərbdə ayrıca **Sanqibuti** adda skif ölkəsinin olduğunu qeyd edir ki, bu adda skif-sarmat mifinin olduğunu yazır. Müəllif, Tiqlatpalsar yazılarında da bu adın **Sanqilli** şəklində çəkildiyini göstərsə də mifoloji baxımdan onun hansı inanc daşıdığı haqda hər hansı bir fikir bildirmir [3, s. 68-69].

**Zanqi** mifologiyasına dair araşdırmalar zamanı biz K.Gəncəlinin skif-sarmatların mifləri ilə bağlı bir məlumatı ilə qarşılaşırıq ki, bu elmi baxımdan xüsusi əhəmiyyətə kəsb edir. Onun yazılarında biz Zəngilan şəhərində böyük bir **Zangi Tenqri-Tanrı məbədi** olması faktı ilə qarşılaşırıq ki, bu məbədin mifologiya ilə bağlılığı müəllif tərəfindən göstərilməklə, ərazi tayfalarının bu abidəni müqəddəs bir yeri kimi qəbul etdikləri geniş şərh olunur [11, s. 27, 80, 215, 224].

Əgər bu faktlar nəzərə alınarsa, **Sanqibuti**-"Zanqi əyaləti bölgəsi" Urmiya gölündən qərbdə, o dövr Naxər-Naxçıvan ölkəsi ərazilərində bir əyalət olmuşdur. Qədim tarixi məlumatlarda **buti/bat** sözü "bölgə, əyalət" adlarında hələ V minilliklərdə Kassi türklərində ümumişlək söz olmuş, onlar şumerləri işğal edib beş yüz il əsarətdə saxlayarkən, böldükləri əraziləri **bat/buti** adlandırmışlar. Biz bu gün də ümumtürk coğrafi arealında Aşqabat, Qızıl Arbat, Ordubad, Astabad kimi adlarda bu sözlə eyni mənada qarşılaşırıq [14, s. 248-250].

Mənbələrə diqqət etdikdə, biz şimal bölgələrində yaşayan tayfalar arasında qədim mifoloji inancla bağlı **Zangi** mifinin mövcud olması faktları ilə qarşılaşırıq. Mənbələrdə Qərbi Sibir tatarları-türklərində **Sanqi baba**, **Paşa Ana** adları Tanrı adları kimi təqdim edilir. Onlar bu tayfalara xeyir gətirən tanrılardan biridir. Bu Tanrı mövcud tayfaları qorumaqla yanaşı, həm də onları təbii sərvətlərlə də doyurur. Bu mifik inanc eynilə özbək türklərində də təkrarlanır. Lakin avar türklərində və leglərdə bu Tanrı **Zalzanaqiy** adı ilə nəhəng qadın simasında uzunburunlu, pırtlaşıq saçlı, şər Tanrısı kimi verilməklə, onun gəlişi ilə ərazidəki tayfalar arasında müharibələr baş verir. Burada **Zalzanaqiyin** gəlişi aclığa, xəstəliklərə də yol açır, insanların əzab çəkdikləri göstərilir [12, s. 22, 456]. Əgər diqqət etsək, eyni adda mif hər tayfanın öz düşüm tərzi və məişətinə uyğun olaraq, onların mifində müxtəlif istiqamətdən yer alır.

Biz yuxarıda Q.Qeybullayevin Herodotun yazılarındakı skiflərlə bağlı mifoloji inanclara toxunduğunu qeyd etdik. Herodotun kitabında da biz **Api** İlahə adı ilə qarşılaşırıq. Bu ilahə torpağı yaradan İlahə olmaqla insanlara ruzi, bərəkət verir [6, V, 59] ki, Q.Qeybullayevin göstərdiyi mif Herodotun məlumatında da eynilə təkrarlanır. Qədim türk dili sözlüklərində **Api**, **aba, ebe** "ana", "nənə", "ulu nənə" (babanın nənəsi), "böyük ana", "ulu ana" kimi göstərilir. Burada sözün **aba** yazılışında qədim türklərdə həm də "ana", "əcdad", "ulu ata" mənaları daşıdığı öz əksini tapır [7, s. 139] ki, bu izahlar, Herodotun izahlarını yeni bir fikir əlavə etmir.

Herodot skif mifində yer alan **Papayı** və **Qoytosir** tanrılarının da adlarını qeyd edir. Burada **Papay**- "ulu ata", "ulu baba", "əcdad", **Qoytosir** isə "İşıq" Tanrısı olmaqla, "Xeyirxah ruh" miflərini daşıyır və yunanlarda Zevslə eyni mifoloji inancı təkrarlayır. Onun yazılarında skiflərdə həm də **Arqimpas**-"Yağış Allahı"nın olduğu da göstərilməklə, bu Tanrı təbiti canlandırmağa xidmət etməklə insanlara qidalanmaq baxımından yardım edir [6, III, 132; IV, 59; 17, s. 220-221].

Mifologiyaya dair digər mənbələrdə də **Papay** və **Api** mifoloji tanrıları Skif prototürklərinin mifində yer alır ki, burada, **Aras** adı da həm Tanrı, həm də çay adı kimi özünü göstərir. Skiflərin bu mifində **Herakl** Tanrısı, **Aras** Tanrısının qızı **Exidna** ilə evlənir, bu evlilikdə ondan **Aqafirs, Skif** və **Tarqitay** doğulur. **Tarqitayın** övladları **Lipoksay** və **Arpoksaydan** isə **Skif xalqı** doğulur və artıq skiflər bir xalq kimi formalaşmağa başlayır. Bu mənbədə **Arpoksayın** övladları isə **Katiar, Traspı** və kiçik oğlu **Kolaksaydan** isə **Paralat** doğulur ki, bunlar sonradan ayrı-ayrı tayfa birliklərinə çevrilirlər və bu tayfa adlarında mövcud mifoloji inanclar üstünlük təşkil edir. Burada **Papay** Tanrısı Tanrıların əcdadı, atası sayılır onun arvadı **Zevs** isə "suyu nizamlayan ilahə" kimi verilir. Skiflərin içində **Sarmat** tayfaları da bir qol kimi verilməklə, onların **Xəncərə-Marsu** mifinə sitayiş etdikləri göstərilir. Bu mifoloji inanc skiflərin mifoloji inancları ilə üst-üstə düşür ki, Sarmat tayfalarının sitayişlərindəki ayinlərin icrası skiflərin **Aras** Tanrısına olan sitayiş ayinləri ilə eyni olaraq təkrarlanır [12, s. 445-449]. **Təkcə bu tarixi fakt skif sarmatların eyni kökdən gəldiyinin danılmaz sübutlarıdır** (-F.R.).

Əgər diqqət etsək, biz tarixi mənbələrdə m.ö. II minilliyin sonu I minilliyin əvvəllərində qeyd edilən **Skif-Sarmat** türklərinin inanclarının əsasən Herodot, Strabon, Pliniy və b. müəlliflərin məlumatlarında, eləcə də ümumilikdə skif-srmatlarla bağlı mifoloji ensiklopedik əsərlərdə geniş yer

aldığını görürük. Lakin xüsusi olaraq qeyd edək ki, bu inanclar da rus siyasəti ilə skif-sarmat dili, onların mifi və yayım əraziləri ümumilikdə əcnəbi tədqiqatçıları tərəfindən araşdırılmış, bəzi hallarda bu mifoloji adlar "irandilli" hesab edilmişdir. Xüsusi olaraq qeyd edək ki, Q.Qeybullayev elmi faktlarla, qədim türk sözlüklərinə istinadla bu fikirləri tam olaraq təkzib etmiş, onlarıntürk dilində olduğunu ortaya qoymuşdur [7, s. 139-140].

M.İ.Artamanov, L.A.Yelinski, V.İ.Abaev və b. da bu müəlliflərə istinad edərək, onların Günəşə sitayiş etdiklərini qeyd etmişlər. Bu yazılarda da inanc Tanrıları ilə qarşılaşırıq ki, burada **Tabiti** əsas İlahə Tanrı kimi verilmiş **Tabiti** əsas İlahə Tanrı olmaqla, həm də skiflərin çarı idi və atəşin içində otururdu. Burada sarmatların da **Xəncərə-Marsu** mifinə sitayişləri xüsusi olaraq göstərilir ki, bu sitayişdəki ayinlər skiflərin Aras Tanrısına olan sitayiş ayinləri ilə eyni olaraq təkrarlanır [12, s. 445-449]. Bütünlükdə bu tarixi faktlar skif sarmatların eyni kökdən gəldiyini bir daha sübut edir.

Ümumilikdə skiflərdəki bu çoxallahlıq əsasən onların övladlarının adından irəli gəlməklə, inancları müəyyən qədər fərqləndirirdi. Biz mənbələrdə bu tayfaların skif, skit iskit, işkuz, işkuzay, aşkenaz yazılışları ilə Herotot, Strabon, İ.M.Dyakonov, A.M.Xazanovun yazılarında yer aldığını qeyd etdik ki, onların Ön Asiya-Azərbaycan ərazilərində Qafqazda, Sakasena, Kür və Araz vadiləri, Gəncə, Qazax, Naxçıvan ərazilərində sıx yaşadıqları müəlliflər tərəfindən tam təsdiq edilir [4, s. 144-154; 6, IV, 6, 27].

Bu istiqamətdə geniş araşdırma aparan Q.Qeybullayev bu tayfaların öz mifoloji inancları ilə Manna və Midiya Alban dövlətləri ərazilərində ilk olaraq məskun olduqları tarixi faktlarla sübut edilir [8, s. 307-315]. Naxçıvan ərazisi toponimik sistemində biz skiflərin **Paralat, Yirik, Arimaspi qolları ilə bağlı Parpi, Pari, Barat, Baratlı, Boralan, Yığrığ, Yürəkir, Püyirik, Qoyuyarak, Ərmus, Aramus** kimi 19 məntəqə adına, xeyli oronim və hidronimə rast gəlirik [10, s. 49, 51, 56, 60, 163-167, 170, 177-178, 181, 183; 13, s. 33].

Biz Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazilərində Skif inancında yer alan **Zanqi** mifoloji inancına da məntəqə, qəsəbə adlarında təsadüf edirik ki, bu adlar XI-XVI əsrlər K.Gəncəli, H.Qəzvini, F.Xunci və b. müəlliflərin yazılarında, eləcə də qaynaq və arxiv materiallarında da öz əksini tapır. Burada **Zanqian, Zanqbi, Zanqiyan, Sanqti** kimi xeyli sayda təkcə məntəqə adları bu mifoloji inancla bağlı ad olmaqla, ərazi toponimik sistemində öz pozulmaz izlərini saxlamaqdadır. Qeyd edək ki, bu məntəqə adları Naxçıvan ərazisi tərkibində olan İrəvan qəzasının, İrəvan, Şərur, Sürməli, Vedi, Qarabağ, Sisyan mahal və nahiyələrində 1590-cı ilin məlumatlarında da qeydə alınırlar [5, s. 21-25; 10, s. 40, 159, 161, 166, 169, 172]**.** Əgər diqqət etsək, **Zanqbi** oykoniminin adlanma üslubu türk tayfaları arasında **bi/pi**-"bəy" qədim türk sözü ilə formalaşmış Su+bi- "Şu bəyi", Kas+pi- "Kas bəyi", Sil+bi-"Sul bəyi" kimi xeyli sayda prototürk boylarının adlanma və formalaşma üslubunu "Zanq bəyi" mənasında təkrar edir. Burada **Zənqovut/Sənqovit** məntəqə adı isə, göstərilən tarixi mənbələrdə eynilə **"Sanqibuti"** mifoloji inancını özündə yaşadan əyalət adını olduğu kimi sadəcə fonetik səsəvəzlənmə ilə təkrarlayır.

## Nəticə

Bütün bu mənbə məlumatlarını ümumiləşdirərək nəticə olaraq qeyd edə bilərik ki, istər bu mifoloji baxışlar və onlarla bağlı olan oykonimik adlar, istərsə də skif sarmat ayinlərinin eyniliyi m.ö. II minilliyin sonu və I minilliyin əvvəllərinə söykənir. Bu isə qədim Naxçıvan ərazisinin ən qədim prototürk yurdu olmaqla onların özünə xas inanclarının da mövcudluğunu göstərir. Bütün tarixi məlumatlar, bu türklərin də məişətində özlərinə məxsus türk inancları olduğunu, bu miflərin ərazi toponimik adlarında da yer aldığını bir daha təsdiq edən tarixi faktlarıdır.

## ƏDƏBİYYAT

1. Абаев В.И. Скифо-европейские изоглоссы. Москва: Наука.1965, 168 s.
2. Артамонов М.И. Киммерийцы и скифы. Ленинград: Ленинградский университет,1974, 155 s.,
3. Cəlilov F.A. Azər xalqı. Bakı: Çıraq, 2005, 432 s.
4. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 с.
5. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Universitet nəşr., 1991, 312 s.

6. Геродот. История. Перевод и примечания Г.А Стратановского. Ленинград: Наука, 1972, 599 с.
7. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
8. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
9. Хазанов А.М. Социальная история скифов: Основные проблемы развития древних кочевников евразийських степей. Москва: Наука,1975, 342 с.
10. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
11. Киракос Гандзакеци. История Армении–Албании. Пер. и комментарий Л.А.Ханларяна. Москва: Наука, 1976, 357 с.
12. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская энциклопедия.1988, 719 с.
13. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
14. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c.(m.ö.VI-III minilliklər). Bakı: ADPU nəşriyyatı., 2013, 529 s.
15. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. (m.ö. II-I minilliklər). Bakı: ADPU nəşriyyatı., 2017, 588 s.
16. Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.
17. Этимологический. словарь тюркских языков. Т. I, Москва: Наука. 1974, 767 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: firudinrzayev@gmail. com***

**Firudin Rzayev**

## RELATED TO THE SCYTHIAN-SARMATIAN TURKS IN NAKHCHIVAN TOPONYMS MYTHS OF API, PAPAYI, GOYTOSIR AND ZANGI

The article talks about the traces of the ancient Turkic myths of the Scythians-Sarmatians, which have a special place in the ancient Turkic mythic thinking, in the toponymis of the Nakhchivan area. The history of Api, Papayi, Goytosir, Zangi myths, which are not mentioned in the research, dates back to BC. Being based on the beginning of the 1st millennium and being mentioned in other Turks, the area has remained in toponymis names until today. The trace of this ancient myth in the toponymis of Nakhchivan has not been studied by Azerbaijani and Turkish scientists, and no explanation of the names of Gods related to them has been given. In the article, mythic names such as Api, Papayi, Goytosir, Zangi in the oikonymic names in the toponymic system of the ancient Nakhchivan area are confirmed on the basis of language and historical facts. The tribes carrying these myths are repeated in the original version in the oikonym, oronym, and hydronymis of almost the entire toponymic system of Nakhchivan.

The fact that Api, Papayi, Goytosir, and Zangi Turkic myths remain in names related to Scythian proto-Turks proves the antiquity of this mythical belief. The place of this name in Nakhchivan and other Turks is justified by scientific facts in the article.

**Keywords:** *Scythian myth, Api, Papayi, Goytosir, Zangi, Nakhchivan, oykonim, oronim*

**Фирудин Рзаев**

## МИФЫ АПИ, ПАПАЙЫ, ГОЙТОСИР И ЗАНГИ СКИФО-САРМАТСКОГО МИФА В НАХЧЫВАНСКИХ ТОПОНИМАХ

В статье говорится о следи древнего Скифо-сарматского мифа на территории Нахчыванских топонимах, которые занимают особые месты в древнетюркской мифологии. В исследованиях история Тенгри Апи, Папайы, Гойтосир и Занги Скифо-сарматов которые относятся к началу I тысячелетия до н.э. вспоминается и в других тюрках, оставили свои следы в Нахчыванских топонимах до нашего дня. Сследы этого древнего мифа в Нахчыванских топонимах, до тех пор не были исследованы азербайджанскими и тюркскими учеными и не анализированы значение

имен эти Тенгри. В статье мифы Апи, Папайы, Гойтосир и Занги подтверждены на основе языковыми и историческими фактами. Племени носившие этих мифов повторяются вообше во всех топонимических системах, в ойконимах, оронимах, и гидронимах Нахчывана.

Существование топонимы с именем Апи, Папайы, Гойтосир и Занги скифских тюрков подтверждает древность веровании этого мифа. Места этого имена в тюрках Азербайджана, Нахчывана, в том числе и в других тюрках обосновывается научными фактами.

**Ключевые слова:** *Скифские мифы, Апи, Папайы, Гойтосир, Занги, Нахчыван, ойконим, ороним.*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 22.10.2024**
**Son daxilolma tarixi:12.11.2024**